*Xəzər Zeynalov (Azərbaycan)*

**Ötən əsrin 80-ci illərində "Tvorçestvo" jurnalında dərc olunmuş Azərbaycan incəsənətinə aid materiallar (mədəni-tarixi təhlil)**

Məqalədə ötən əsrin 80-ci illərində "Tvorçestvo" jurnalında dərc olunmuş Azərbaycan incəsənətinə aid nəşrlər nəzərdən keçirilir. Həmin dövrdə Azərbaycan incəsənəti ümumittifaq miqyasında geniş işıqlandırılırdı. Rusiyalı müəlliflərlə yanaşı, bu işdə Moskva dövri nəşrlərində, o cümlədən "Tvorçestvo" jurnalında müntəzəm surətdə yazılarla çıxış edən Azərbaycan sənətşünasları da aktiv iştirak edirdilər. Nəşrlərin təhlili göstərir ki, onların böyük əksəriyyəti elmi-populyar xarakterli olmaqla jurnalın profilinə uyğundur. Bunlar əsas etibarilə oçerk, qeyd, müsahibə olub müvafiq bölmə və rubrikalarda çap edilirdi. Mürsəl Nəcəfov, Cəmilə Novruzova, Qriqori Anisimov və başqalarının Azərbaycan rəssam və heykəltəraşlarının – Böyükağa Mirzəzadə, Fərhad Xəlilov, Asif Cəfərov, Nadir Qasımov, Mirələsgər Mirqasımov, İbrahim Zeynalov, Fazil Nəcəfov və bir çox başqalarının yaradıcılığını işıqlandıran məqalələri maraq doğurur.

***Açar sözlər:*** "Tvorçestvo" jurnalı, Azərbaycan rəngkarlığı, Azərbaycan heykəltəraşlığı, Mürsəl Nəcəfov, Cəmilə Novruzova.